

# "Bir ad elədim mən qoca rindalər içrə..."

## Ağakərim Nafizin "Divan"ı haqda bir neçə söz

**Kənan HACI**

Kədərdən mənəvi enerji alan və bu enerjini sözə çevirməyi bacaran, bu kədəri öz taleyi kimi yaşayan, ondan qidalanan çox az şairlər var. İnsan kədərinin misralara hopması unikal hadisələrdəndir, bu, yalnız şair qələmində mümkündür. Hər insan övladı öz kədərini şeirə çevirə bilmir axı... Bunun üçün gərək uca Yaradan insana istedad verə, istedad insan oğlu üçün ən böyük nemətdir. Söz qələmin ucunda cilvələnir və şair öz kədərini nəqqaş kimi kağıza köçürür.

Təkcə kədər deyil, sevinc çeşniləri də sayrışır sözdən toxunmuş bu xalıda... İnsan hisslərinin nəhayətsizliyi bəzən sözün çərçivələrinə sığmır, səsdə nəvalənir... Bax, Ağakərim Nafiz o xoşbəxtlərdəndir ki, Səs və Söz onun bəxtində həmişə qoşa addımlayıb. Bir-birinin əlindən tutaraq, bir-birinə həyan olaraq ömür və sənət yollarını keçib gediblər... Bu səs onu çox uzaqlara aparıb çıxarıb; məmləkətin kiçik zallarından böyük dünya səhnələrinə qədər... Dünyanı dolaşıb bu qədim səs. Sözün sayəsində səsin qəddi dik olub, səsin qanadında söz pərvazlanıb...

Yaratmaq hissi insana Allahdan keçən bir xassədir. Məhz buna görədir ki, Tanrı məqamında peyğəmbərlərdən sonra şairlər dayanır. Onlar mənə dənizinə tor atmış dalğıclardır. Mən Ağakərim Nafiz "Divan"ını oxuyanda ağlıma bu sözlər gəlir. Onun şeiriyyatı ayrıca bir əlifba, sözlük kimidir. Füzuli, Seyid Əzim havasında söz oynatmaq hər şairə müyəssər olası qüdrət deyil. Nafizin qəzəliyyatı məhz o havalarda ustacasına dolaşır.

*Ey səba, ərz elə kim, dərdimizi yarə bir az,*
*Gəlib insafə, edə dərdimizə çarə bir az.*

*...Bir öyüd verdi mənə qəmzədə bir hal əhli,*
*Əqlin olsun dedi, ey Nafizi-avarə, bir az.*

Rəməl bəhrində yazılmış bu qəzəldə Yaxın və Orta Şərq şeirinin nəzəri ölçüləri gözlənməklə bir yenilik rüzgarı əsir. Misra vəzninin yekparəliyini qorumaq, fikir və mənanın daxili rabitəsinə, səslərin tənasübünə riayət edərək harmoniya yaratmaq hər söz ustadına nəsib olmur.

Ağakərim Nafiz Şamaxı torpağının yetişdirdiyi sənətkarlardandır. Dərslərini yaxşı oxumayanda müəllimləri ona mahnı oxudub qiymətini yazırmışlar. Onlar da bu uşağın istedadını görürmüşlər və onun məhz Allah vergisi olan səsiylə uğur qazanacağına inanırmışlar. Orta məktəbdə, Şamaxı Mədəniyyət Evindəki bütün konsert proqramlarında yeniyetmə Ağakərim səsiylə hər kəsi valeh edirmiş. Öz səsiylə taleyinə naxış vuran bu uşaq ilk dərsini həmin Mədəniyyət Evində çalışan xanəndə Ağalar Əhmədşah oğlundan alır. On yeddi yaşında el şənliklərində oxumağa başlayır. Klassik ədəbiyyatımızı, muğamın incəliklərini mənimsəyir, sözün, səsin sehrinə vaqif olur. Onu ahənrüba kimi özünə çəkən sənət aləmində öz bəxtiyarlığını yaşayır.

Didərgin taleli şair Məhəmməd Biriya ilə tanışlıq onun həyatında dönüş nöqtələrindən biri olur. Cənubi Azərbaycanda Milli Hökumət qurularkən Pişəvəri hökumətində Maarif naziri olmuş Biriyanı siyasətin sərt küləkləri bu taya gətirib çıxarmışdı. İslah əmək düşərgələrində əzablı sürgün həyatı yaşamış yorğun şairin güzarı Şamaxıya düşəndə Ağakərim bu fürsəti qaçırmır. Onunla tanış olub ünsiyyət qurur və yazdığı qəzəlləri Biriyaya oxuyur. Biriya onun təbinin zərifliyinə heyran olur və aralarında dostluq münasibətləri yaranır. Bu rəfiqlik qərib şairin Təbrizə, doğma vətəninə döndüyü günə qədər davam edir. Lakin onların mütəmadi görüşləri heç də rahat, asudə ortamda keçmirdi. Biriyanı qarabaqara izləyirdilər, hara gedir, kimlərlə görüşür, nələrdən danışırlar... Ağakərim də bütün bunlardan xəbərdar idi, ancaq bu izləmələr, həbs təhlükəsi zərrə qədər onu qorxutmurdu. İki söz adamının aşinalığından sovet hökumətinə nə ziyan dəyə, hansı sədəmə toxuna bilərdi?!



Amma Ağakərimin sonralar başı çox bəlalar çəkəcəkdi, cəsarət və qorxmazlığını ona bağışlamayacaqdılar. Sovet rejiminin kəşhakəs dövrlərində heç nədən çəkinmədən istiqlal məfkurəsini təbliğ edən dəyərli bir alim də var idi ki, Ağakərim Nafiz onunla da məktublaşır, fikirlərini bölüşürdü. Həmin şəxs Stalin repressiyasından nəsibini almış alimlərimizdən biri, filologiya elmləri doktoru Əhməd Cəfərzadə idi. Unudulmaz xalq yazıçısı Əzizə Cəfərzadənin qardaşı Əhməd Cəfərzadə. Gənc yaşlarında şeirlərində milli düşüncəni təbliğ etdiyi üçün tutulub Sibir düşərgələrinə sürgün edilmiş bu qiymətli ziyalımızla Ağakərimin dostluğu onun həyatının əhəmiyyətli səhifələrindəndir. Bir müddət Sibirdə, Orta Asiyada yaşamış Ağakərimlə Əhməd bir müddət məktublaşıblar. Ağakərim Nafizin sənətdə inkişafına vəsilə olan bu məktublar həm də araya bir dostluq körpüsü atır.

Allahın qeybdən göndərdiyi sözlər iki vasitə ilə özünü göstərir: biri vəhydir, digəri ilhamdır. Vəhyi peyğəmbərlərə göndərir, ilhamı isə şairlərə bəxş edir. Əlbəttə, sənətkarın istedadı İlahi verginin nəticəsidir. Ağakərim Nafizin ilhamı karvan ləngərindədir.

*Piyaləmiz genə gülgün şərab ilən doludur,*
*Rəşkdən qönçənin ağzı gülab ilə doludur.*

*...Yatıbdı fil qulağında, xəyal edin, Nafiz,*
*Ki, onun gözləri qəflətlə, xab ilən doludur.*

Məntiqi mühakiməni qəbul etməyən qəlb elmi Cəmşidin camı kimi bütün dünyaya güzgü tutur. Və bu güzgüdə aşiqlər bağçası bütün aydınlığı ilə görünür. Bu bağçada qönçənin piyaləni qısqanmasını şair görün necə təsvir edir: "Rəşkdən qönçənin ağzı gülab ilən doludur". Qönçənin bağrındakı rayihə, ətir aşiqi o gülgün piyalədəki şərabdan daha artıq məst edir. Şair eşq içində, sevda dünyasında insanın Allah qarşısında etiraflarını qələmə alır. Dövran öz əzəli gərdişindədir, insan da həmişəki kimi xabi-qəflətdə... Söz səltənətində yorğun bir yolçu getdikcə gedir, sözlərin sərhədinə yetişə bilmir, misralar doğulur. Fiziki dünyanın qəfəsində çırpınır. Neyləsə də canına dolmuş eşqin sirrini izhar edə bilmir:

*Eşq içrə yaxıldım da, yıxıldım da, əzildim,*
*Eşqi eləyə bilmədim izhar, qocaldım.*

O, nə birincidir, nə də sonuncu... Eşqi izhar etmək səadəti hansı aşiqə nəsib olub ki?! Səsindəki yanğı da ondandı. Bir zamanlar amansız fələyin gərdişindən gileylənən talesiz xanəndə Mirzə Məhəmmədhəsənin səsindəki yanğı da hopub onun avazına. Hara getsə də bu yanğı onunla birgədir. Fransada, İtaliyada, İspaniyada, İsveçrədə verdiyi konsertlərdə Azərbaycan muğamını təmsil edəndə də o səsdəki yanğı əcnəbiləri heyrətə gətirib. Bəşəri eşq və məcazi eşq ilə ilahi eşqi bir-birindən ayıran bir çox xüsusiyyətlər var ki, klassik şeiri oxuyarkən bunları özün üçün müəyyənləşdirməlisən. Aşiq bu məcazi aləmdən ilahi aləmə doğru yolçuluq edərkən bu yolun məhz məcazi aləmdən keçdiyini idrak edir. Bu formul çox önəmli bir funksiya daşıyır divan şeirində. Ağakərim Nafiz bu incə xətləri bir-birindən ayırmağı və birini digərinin içində ustacasına əritməyi bacaran söz nəqqaşıdır.

*Çox rindi-xərabatlərin dərdini çəkdim,*
*Bir ad elədim mən qoca rindalər içrə.*

Nafiz təkcə şair deyil, xanəndə deyil, həm də orijinal bəstələri ilə musiqi xəzinəmizi zənginləşdirmiş bəstəçidir. Muğamları ifa edərkən əsasən, özünün yazdığı təsnifləri ifa edir.

Ağakərim Nafizin klassik üslubda yazdığı şeirlər, qəzəllər tədqiqatçı Turan İbrahimov tərəfindən toplanıb və 630 səhifəlik "Divan"ı çap edilib. "Divan" klassik divan tərtibi qaydalarına uyğun şəkildə tərtib olunub. Ədəbiyyatımız qarşısında bu fədakar xidmətinə görə Turan bəyə sonsuz təşəkkür düşür. Ağakərim Nafizin "Divan"ı əruz ədəbiyyatımızda müstəsna bir hadisədir. Əruz vəzninin ən çətin bəhrlərində də çətinlik çəkmədən ilham atını səyirdən Ağakərim Nafiz Azərbaycan ədəbiyyatında işlənən qəliblərə dörd yenisini əlavə etmişdir.

Bu barədə ədəbiyyatşünas tədqiqatçı Pərvanə Bayram Türkiyə mətbuatında "Çağdaş Azərbaycan şeirində bir qəzəl ustası: Ağakərim Nafiz Şirvani" geniş elmi məqalə ilə çıxış edib və həmin məqalədə Ağakərim Nafizin həyatının, yaradıcılığının demək olar ki, bütün məqamlarına elmi şəkildə nəzər salınır.